## Инклюзивное образование и инклюзия в спорте

*Н.р.Эльясова*
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*

**Аннотация:** В статье раскрывается смысл инклюзивного образования,важность его распространения на территории республики а также внедрения ее в спорт. Актуальность инклюзивного образования на данный момент очень высока в связи с чем создано много международных и локальных программ.Поэтому инклюзивное образование должно быть доступным и для всех.

**Ключевые слова:** спорт, инклюзивное образование, инклюзия в спорте

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN İDMANÇILARININ BEYNƏLXALQ ÖLKƏLƏRƏ İNTEQRASİYASINDA XARİCİ DİLLƏRİN ROLU

*İdman ustası, Etibar Quliyev*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütünhüquqlarqorunur.

**Annotasiya**: Məqalədə, Azərbaycan idmançılarının müstəqillik dövründə beynəlxalq ölkələrə inteqrasiyasında xarici dillərin rolu,məsələsi iləbağlı müvafiq qanunvericilik aktları, dövlət proqramları, digər rəsmi sənədlər, Sərəncam və Fərmanların elmi cəhətdən təhlili, ingilis dilinin hal-hazırda dünyada diplomatiya, kommersiya, elmi-texniki və kütləvi informasiyada rolu, müstəqillik dövründə idmançıların beynəlxalq əlaqələrdə xarici dillərin mövcud vəziyyətini öyrənmək və təhlili, dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların Azərbaycan Respublikasında təhsil almalarına şərait yaradılması və onların ixtisaslaşdırılması strateji cəhətdən faydası, müstəqillik dövründə idmançıların beynəlxalq əlaqələrdə xarici dillərin mövcud vəziyyətinin təhlili,bütün inkişaf etmiş ölkələrin dil bacarıqları dövrün ən zəruri, aktual problemləri,xalqlar və mədəniyyətlərarası əlaqələrin öyrənilməsində, insanlar arasında körpü salınmasında, habeləbiznes dünyasında xarici dil bilmənin rolu,xaricidillərin inkişafı üçün Azərbaycanda yaradılan dillər üzrə tədris müəssisələrinin səviyyəsinin araşdırılması haqqında və başqa problemlər öz həllini tapmışdır.

**Açar sözlər:**Beynəlxalq Olimpiya Komitəsi, Milli Olimpiya Komitəsi, Azərbaycan idmançıları, beynəlxalq ölkələr, beynəlxalq əməkdaşlıq, dünyaya inteqrasiya, xarici dillər, “İslahat Proqramı”, Azərbaycan bayrağı, idman, bədən tərbiyəsi, idman siyasəti, tədrismüəssisələri, maqnitafon-lent, vətənpərvərlik tərbiyəsi, sərgi və yarmarkalar.

Bütün inkişaf etmiş ölkələrin dil bacarıqları dövrün ən zəruri, aktual problemlərindən biridir. Xalqlar və mədəniyyətlərarası əlaqələrin öyrənilməsində, insanlar arasında körpü salınmasında, habelə biznes dünyasında xarici dil bilmənin rolu əvəzsizdir. Bu, hər şeydən əvvəl, idmançı-gənclərə gələcəkdə çoxdilli bir mühitdə işləmək üçün geniş imkanlar açır. Bugünki iş dünyasında xarici dil bilən mütəxəssislərə yaranan tələbata müvafiq olaraq xarici dillərin keyfiyyətli tədrisinə də tələb artır [9].

Müstəqillik illərində bütün inkişaf etmiş ölkələrin beynəlxalq əlaqələr sahəsində humanitar meyarın təsdiqi prosesi müşahidə olunur. Müasir beynəlxalq münasibətlərdə xarici dillər problemləri xüsusi əhəmiyyət kəsb edir. Onların həlli beynəlxalq münasibətlərin vəziyyətindən, onlarda mövcud olan gərginlik səviyyəsindən, habelə, bu prosesə yalnız dövlətlərin rəsmi nümayəndələrinin deyil, həm də ictimaiyyət nümayəndələrinin, o cümlədən idman

ictimaiyyətinin cəlb edilməsindən asılıdır.
İdman inkişaf etmiş ölkələrdə olduğu kimi, mənşəyindən, təhsilindən, dini etiqadından, yaxud iqtisadi vəziyyətindən asılı olmayaraq insanları dillər vasitəsilə birləşdirmək qabiliyyətinə malikdir. Müasir dünyada idman güclü potensiala və imkanlara malik vasitədir. Müxtəlif ölkələr bu alətdən məqsədlərini reallaşdırmaq üçün fərqli şəkildə istifadə edirlər. Bu gün idman beynəlxalq münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilib. O, beynəlxalq əməkdaşlığın fəallaşdırılması vasitəsi, münaqişələrin qarşısının alınması və mədəniyyətlərarası dialoqun qurulması aləti kimi çıxış edir. İdman universal olduğundan, irqindən, dini etiqadından, ideoloji baxışlarından asılı olmayaraq, hamı üçün anlaşılandır və bu da onun əhəmiyyətini artırır.
Azərbaycan Respublikasının müstəqil, zəngin iqtisadi potensiala malik bir dövlət kimi dünyaya inteqrasiyası, beynəlxalq münasibətlərin genişlənib möhkəmlənməsi, informasiya axını xarici dillərə olan tələbatı həyati zərurətə çevirmişdir. Bu gün Azərbaycan dünya birliyi ölkələrilə ictimai həyatın bütün sahələrində səmərəli əməkdaşlıq edən bir ölkədir.
Azərbaycan Respublikasının Prezidentiİlham Əliyev deyir ki, “Mən əminəm ki, idman xalqlararası, dinlərarası əlaqələrin inkişafına çox əhəmiyyətli töhfə verir. Bizim ölkə idman yarışlarının keçirilməsi ilə, eyni zamanda, bu məqsədi də güdür”.
Azərbaycan Respublikasının təhsil sahəsində “İslahat Proqramı”nın bu sahədə apardığı tədqiqatların nəticəsi göstərir ki, hal-hazırda inkişaf etmiş Avropa ölkələrinə inteqrasiya olunmaq, Avropada yaşayan xalqlar ilə ünsiyyəti genişləndirmək üçün milli təhsil sistemində, o cümlədən xarici dillərin müasir səviyyədə tədrisində əsaslı dəyişikliklər nəzərdə tutulmuşdur [10].
Ümummilli lider Heydər Əliyev idmanın əhəmiyyətindən bəhs edərək qeyd edirdi: «İdman, bədən tərbiyəsi, hər bir sivilizasiyalı xalqda, ölkədə olduğu kimi, Azərbaycan xalqının da, Azərbaycan vətəndaşlarının da həyat tərzinin mühüm bir hissəsidir» [4].
Ulu öndər idmanın dövlətimizin dünyada tanınmasında, imicinin möhkəmlənməsində müstəsna rolunu önə çəkərək deyirdi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".
Aparılan tədqiqat mərkəzin bürokratik əngəllərinin aradan qaldırılmasını və Azərbaycan Respublikasının beynəlxalq idman əlaqələrini canlandırmağı zəruri edir. Azərbaycan idmanı həmişə sülh rəmzi olub və ona yeni keyfiyyət halı verilməsi zəruridir. Tədqiqat göstərir ki, respublikamızın beynəlxalq idman əlaqələri əsasən 60-cı illərdən inkişaf etməyə başladı. Azərbaycanlılar turist kimi dünyanın hər hansı ölkəsində sülh, xalqlar dostluğu carçısı kimi çıxış edirlər, xalqımızın ən nəcib sifətlərini nümayiş etdirirlər. Azərbaycan Respublikasına turist kimi gələn əcnəbilər xalqımızın tarixi keçmişi , bu günü və mədəniyyəti ilə tanış olurlar, onun qonaqpərvərliyinin şahidi olurlar. İdmançı gənclərdə fiziki mədəniyyət peşələrinə yiyələnmələrində və bu sahədə onlara mükəmməl hazırlıq vermədə xarici dillərin müstəsna əhəmiyyəti vardır. Dil təkcə fikrin ifadə vasitəsi, habelə ünsiyyət vasitəsi deyil, dil xalqın milli varlığının təminatında böyük rol oynayır. Dil gənc nəslin milli tərbiyəsində milli özünü dərk etmədə, vətənpərvərlik hisslərinin inkişafında böyük rol oynayır.
Azərbaycan idmançıları dünyanın 100-dən artıq ölkəsilə idman sahəsində əlaqə saxlayıb. İdman əlaqələri müxtəlif formalarda həyata keçirilib. İdman günləri, qardaşlaşmış şəhərlər arasında saxlanılan müxtəlif formalı idman əlaqələri buna misal ola bilər. Həmin əlaqələrdə xarici dillərə böyük ehtiyac duyulmuşdur. Təcrübə göstərir ki, tərcüməçinin köməyi işi qane etmir. Ç.Çaplinin dediyi kimi, “Hədəfə vurmaq üçün gərəközün nişan alasan,

başqasının nişan alması,heç də həmişə hədəfin vurulmasına gətirib çıxartmır". Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında göstərilir ki, XII əsrdə Bağdadda "Top və çövkən" oyunları üzrə beynəlxalq yarışda bir çox ölkələrin 200-dən çox atçı idmançısı iştirak etmişdir. Azərbaycanı bu yarışda təmsil edən azərbaycanlı bahadur Fəxrəddinin dəstəsi yarışmış və qalib gəlmişdir. O, xəlifədən 40 nəfər əsir düşmüş Azərbaycan qızlarını azad etməyi xahiş etmiş və buna nail olmuşdur [2].

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) sabiq prezidenti Xuan Antoniya Samaranc 19 aprel 1994 –cü ildə Bakıya gəlişində demişdi: "əgər hər hansı ölkə öz gənclərinin yüksək inkişafını istəyirsə, öz gənclərinin idman tərbiyəsinə xüsusi diqqət yetirməlidir " [3].Bu da sübut edir ki, xarici dilləri öyrənmək vacibdir. Beynəlxalq Olimpiya Komitəsi (BOK) dünyada öz nüfuzu ilə tanınan təşkilatlardan biridir. Onun 196 üzvü var. Müstəqil Azərbaycan Respublikası da artıq olimpiyaçılar ailəsinin həqiqi üzvüdür. (28 ildir dünya idmanının ən mötəbər təşkilatına bacarıqla başçılıq edən, bir adamın sülh və olimpizm ideyalarının, yer üzündə haqq-ədalətin təntənəsi naminə böyük xidmətlərinə verilən yüksək qiymət idi).

Tarixi faktlar göstərir ki,1946-1990–cı illər Azərbaycan Respublikasının idman əlaqələri mədəni əməkdaşlığa tövhə verib. Lakin açıq etiraf etmək lazımdır ki, xarici ölkələrlə idman əlaqələri bir qayda olaraq təsadüfi xarakter daşıyıb, imkanlardan xeyli aşağı səviyyədə olub. Bu mədəni əməkdaşlığın bütün mərhələləri üçün səciyyəvidir. Mərkəzin bürokratik əngəlləri bu dövrün siyasi ab-havası müttəfiq respublikaların, xüsusən Azərbaycan Respublikasının idman əlaqələrinə çox böyük mane idi. Müttəfiq respublikalara əyalətçilik gözü ilə baxılması əslində onların müstəqil beynəlxalq mədəni əlaqələr saxlamasının üstündən xətt çəkir.

Ötən 70 il ərzində dünya idman siyasətində ciddi keyfiyyət dəyişiklikləri baş vermiş, beynəlxalq münasibətlər sistemində demokratik meyllər qüvvətlənmişdir. Heydər Əliyev respublika fəallarının yığıncağında çıxış edərkən demişdir: "Kütləvi idman işinin inkişafına rəhbərlik böyük siyasi əhəmiyyətə malik işdir, çünki xalqın sağlamlığına bizim dövlət qayğımız həmişə böyük əhəmiyyət vermişdir və indi də verir."

Fərəhli haldır ki, "Dostluq-84" yarışlarının təşkilat komitəsinin sədri xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dediyi kimi: "Olimpiya oyunları təkcə idman yarışı deyil, həm də böyük siyasətdir. Olimpiya oyunları böyük bir idman hadisəsidir və deyə bilərəm ki, dünya miqyasında çox böyük ictimai hadisədir".

Respublikamızın və xarici ali məktəblərin birgə proqramlarının yaradılma siyasətinin və asılılığının təhlili, həm Avropa birgə proqramlarının, həm də Azərbaycan təhsil sisteminin inkişafının Avropa təhsil sistemindən təcrid vəziyyətinin dəf edilməsilə bağlı məqsəd və maraqların mövcudluğunu göstərir. Avropa universitetləri üçün Azərbaycan ali məktəbləri ilə birgə proqramlar yaradılmasında başlıca prioritetlərdən biri yeni təhsil bazarına çıxışdan, tələbələrin cəlb edilməsinin genişləndirilməsindən, onların diplomlarının əmək bazarında mövqelərinin və tanınma dərəcəsinin gücləndirilməsindən ibarətdir. Eyni zamanda Azərbaycanın müəllim və tədqiqatçıları üçün daha əlverişli şərait yaradılmasından və ali məktəblərin beynəlxalq rəqabət qabiliyyətliliyinin möhkəmləndirilməsindən ibarətdir.

Xarici dillərdəki ədəbiyyatdan bəhrələnməmək bizim elmimizin ən böyük nöqsanıdır. Məlum həqiqətdir ki, qeyri-dil institutlarında tədris materiallarının məzmunu məsələsi az tədqiq olunmuşdur. O cümlədən ADBTİA-nın proqramında bu tələbi tam ödəmirdi. Sözün əsl mənasında şifahi nitq fəaliyyəti zəif idi.

Akademiyanın yeni rektorunun fəaliyyəti nəticəsində qısa (2015) müddətdə akademiyanın maddi-texniki bazası əhəmiyyətli dərəcədə dəyişilmiş, tədris yüksək səviyyədə təşkil olunmuş, tələbələrin

dərsə davamiyyəti artmış, beynəlxalq standartlar prinsipi gözlənilmiş, 2016-cı ildə ixtisasartırma işinə xüsusi diqqət yetirilmişdir.ADBTİA-nın əməkdaşlarından 30 nəfər müəllim ixtisasartırma kurslarında iştirak ediblər (2016). Sosial elmlər kafedrasının 15 nəfər xarici dil tədris edən müəllimi "Tədris etmə biliklərinin qiymətləndirilməsi və artırılması" kurslarını bitirərək testlərdən keçmişlər və onlardan 12 nəfəri artıq Kembric Universitetinin xarici dil müəllimliyi üzrə sertifikat almışlar [1].

Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, Acıbadəm Universiteti, Hacəttəpə Universiteti (42438 tələbə), Mərmərə Universiteti (51000 tələbə), İstanbul Universiteti (178901 tələbə), Ankara Universiteti (66555 tələbə), Sofiyada "Vassil Levski" Milli İdman Akademiyası, Köln Alman İdman Universiteti (6000 tələbə), Şeffield Hallam Universiteti (31500 tələbə) və Lubliana Universitetinə (42922 tələbə) səfər etmişlər. Səfər zamanı idman tibbi, idman menecmenti və idman jurnalistikası da daxil olmaqla bədən tərbiyəsi və idman sahəsində mütəxəssislərin hazırlanması üzrə təhsil modelini öyrənmək üçün müxtəlif görüşlər keçirilmişdir. Tədris və elmi-tədqiqat laboratoriyalarının işinin təşkil edilməsinə və onların müasir təhsil prosesində rolunun öyrənilməsinə xüsusi diqqət yetirilmişdir [1].

Təhsildə keyfiyyətin artırılması, yeni proqramların yaradılması və tələbə yönümlü təhsil sisteminə keçid edilməsi üçün kineziologiya, kinezioterapiya, idman farmakologiyası, dietologiya, idman psixologiyası, fiziki reabilitasiya, idman menecmenti, idman jurnalistikası və s. kimi yeni fənlərin tədris proqramına daxil edilməsi zəruridir. Bununla yanaşı müvafiq sahələr üzrə müəllimlərin çatışmazlığı problemi xüsusi aktuallıq kəsb edir. Bu məsələ islahatların ayrıca bir hissəsini təşkil edir və bununla bağlı olaraq Strateji Planlaşdırma üzrə İşçi Qrupu yüksək ixtisaslı xarici mütəxəssislərin həm tələbələrin tədrisi, həm də yerli kadrların intensiv hazırlığı prosesinə cəlb edilməsi üçün aparıcı xarici universitetlərlə danışıqlar aparır.

2017-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) üç yeni magistr ixtisasları - İdman Tibbi və Reabilitasiya, İdman Menecmenti və İdman Jurnalistikası yaradılmışdır. ADBTİA-nın tədrisi ingilis dilində olan bu ixtisaslarına qəbul olmaq istəyən bakalavrlar Dövlət İmtahan Mərkəzinin magistr imtahanın yalnız birinci mərhələsini keçmiş və Mərkəz tərəfindən birinci mərhələ üçün müəyyən edilmiş müsabiqə şərtlərini ödəmişdilər. Bakalavrlar qəbul imtahanının ikinci mərhələsi əvəzinə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəyyən etdiyi qəbul prosedurlarından keçmişdilər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "İdman menecmenti" və "İdman jurnalistikası" ixtisasları üzrə magistr tələbələr Birləşmiş Krallığın təhsil-təcrübəsi ilə yaxından əməkdaşlıq edirlər. Əməkdaşlıq nəticəsində tələbələr İngiltərənin London, Şeffild, Lids, Mançester, Lafboro, Rugby, York şəhərlərində yerləşən müxtəlif idman ali təhsil müəssisələrində və idman obyektlərində olmuş, habelə həkim-magistrantlar üçün UCL hospitalları, UCL İdman Tibbi İnstitutu, İngilis İdman İnstitutu, "Çelsi" Futbol Klubunun Tibbi klinikası, özəl reabilitasiya klinikalarında təhsil-təcrübə seminarları keçirilmişdir. Bundan əlavə, magistrlar ELEVATE "The Arena of Physical Activity", "Health and Performance" Beynəlxalq İdman tibbi və reabilitasiya konfransında fəal iştirak etmişdilər. 14 günlük proqram ərzində tələbələrə 2 universitetdə 4 modul üzrə mühazirələr keçirilmiş, 9 idman məkanına səfər olunmuş, 3 şəhərə mədəni səfər təşkil olunmuşdur [1].

Bolqarıstanın "Vassil Levski" Milli İdman Akademiyası, Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, eyni zamanda Belarusiyanın Milli Elmlər Akademiyasının Fiziologiya və Genetika İnstitutları,

Gürcüstanın Dövlət Bədən Tərbiyəsi və İdman Pedaqoji Universiteti, Türkiyənin Afron Kocatepe Universiteti, Kastamonu Universiteti və Macarıstanın Fiziki Tərbiyə Universiteti ilə memorandumlar imzalanmışdır. İmzalanmış memorandumlar çərçivəsində akademik və tələbə heyətin mübadiləsi, birgə elmi tədqiqatların aparılması və təlim, seminar, konfransların keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Amerika Birləşmiş Ştatları, İsrail və Yaponiya səfirlikləri ilə də yaxından əməkdaşlıq edir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası fəaliyyətə başladığı vaxtdan etibarən ölkəmizin idman həyatına layiqli töhfələr vermişdir. Akademiyanın yetirmələri Yay Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında böyük nailiyyətlər qazanaraq ölkəmizi layiqincə təmsil etmişlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasındainformasiya-kommunikasiya texnologiyaları mərkəzi, tədris, elmi-tədqiqat, təcrübə-sınaq laboratoriyaları, resurs, treninq mərkəzləri yaradılmış və onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı təmin olunmuş, elektron kitabxana və müasir mətbəə kompleksləri yaradılmışdır [7].

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Avropa ali təhsil məkanına inteqrasiyası məsələsində bir çox əhəmiyyət kəsb edən problem, perspektivlik və meyillər davam etməkdədir.

Fikrimizcə, Müstəqil Azərbaycan Respublikasının idmançılarının beynəlxalq münasibətlər sisteminə daxil olması, dünya xalqları ailəsinin bərabər hüquqlu üzvünə çevrilməsi üçün geniş perspektivlər açılmasında xarici dillərin rolu böyükdür.

**Tədqiqatın məqsədi:** Azərbaycan idmançılarının müstəqillik dövründə beynəlxalq ölkələrlə əlaqələrində xarici dillərin rolunun əsas istiqamətlərinin və nəticələrinin tədqiq edilməsidir;

- xarici dillərin inkişafı üçün Azərbaycan ölkəsində yaradılan dillər üzrə tədrismüəssisələrinin səviyyəsini araşdırmaq;

- xarici dillər sahəsində dövlətin aparmış olduğu uğurlu siyasətin nəticəsi kimi Azərbaycanın beynəlxalq idman əlaqələlərini müəyyənləşdirmək.

**Tədqiqatın vəzifələri:**

-xarici dillərin inkişafı üçün Azərbaycanda yaradılan dillər üzrə tədris müəssisələrinin səviyyəsini araşdırmaq;

-Azərbaycanın müstəqilliyi dövründə idmançıların beynəlxalq əlaqələrin inkişafına dair xarici ədəbiyyatı, müxtəlif sənədləri, qərar və qətnamələri öyrənib təhlil etmək, nəticələr çıxarmaq;

- müstəqillik dövründə idmançıların beynəlxalq əlaqələrdə xarici dillərin mövcud vəziyyətini öyrənmək və təhlil etmək;

- müstəqillik dövründə bədən tərbiyəsi və idmanın inkişaf tarixində beynəlxalq əlaqələrin inkişafına dair xarici dillərin dövriyyələşməsini müəyyənləşdirmək (1991-1993; 2003-2019);

-Xarici dildə görkəmli idmançıların kinofilminin nümayiş etdirilməsi,dərslərdə maqnitafon-lent yazılarını dinləmək.

**Tədqiqatın elmi yeniliyi:** Azərbaycan idmançılarının müstəqilliyi dövründə beynəlxalq ölkələrlə əlaqələrində xarici dillərin rolu araşdırılır, bu məsələlərlə bağlı müvafiq qanunvericilik aktları, dövlət proqramları, digər rəsmi sənədlər, Sərəncam və Fərmanlar elmi cəhətdən təhlil olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** elmi məqalədə Azərbaycanda beynəlxalq ölkələrlə əlaqə sahəsində həyata keçirilən dövlətin qayğısı tədqiq edilmiş, həmçinin, Azərbaycan Respublikasının beynəlxalq ölkələrlə əlaqələrində xarici dillərlə bağlı mühazirələrin oxunması, mühazirə mətnlərinin və dərs vəsaitlərinin tərtibində də istifadə edilə bilər.

Tədqiqat prosesində belə **nəticəyə gəlmək olar ki,**Azərbaycan idmançılarının müstəqillik dövründə beynəlxalq ölkələrlə əlaqələrində xarici dillərin inteqrasiyasistemi tədqiq olunur.

**Ədəbiyyat**
1. ADBTİA-nın Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən görülən işlər haqqında hesabat (əl yazmasında) 2019-cu il, 12 səh.
2. ADBTİA-nın elmi-tədqiqat işləri haqqında hesabat (əl yazmasında). 2019-cu il, 8 səh.
3. Azərbaycan qəzeti, 20 aprel 1994
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı, Azərnəşr, 1997, s. 227
5. Ordubadi M.S. "Qılınc və qələm "romanı
6. "İdman"qəzeti, 22 aprel 1994
7. Quliyev D.Q. İdman Akademiyasının dünya və Avropa ali təhsil məkanına inteqrasiyası. Olimpiya dünyası qəzeti.№ 17 1417, 23-29 aprel,2019
8. http://www.azteachers.az/sites/default
9. http://beu.edu.az/az/pages/Foreign-Language-903362.html
10. (http://www.azteachers.az/sites/default)

## Роль иностранных языков в интеграции Азербайджанских спортсменов в зарубежные страны в годы независимости

*Мастер спорта, Этибар Гулиев*
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

**Аннотация:** В данной статье нашли свое решение, научный анализ указов и постановлений, соответствующие законодательные акты и связанные с этими вопросами государственные программы, другие официальные документы, роль английского языка в мире в настоящее время в дипломатии, в коммерции, в мореходстве, в науке, в технике, в массовой информации, изучение и анализ текущего положения иностранных языков в международных отношениях спортсменов в период независимости, создание условий для азербайджанцев, разбросанных по различным странам мира, с целью получения образования в Азербайджанской Республике, стратегическая польза их специализированности, языковые способности всех развитых стран, самые важные и актуальные проблемы времени, роль знания иностранного языка в изучении международных и межкультурных отношений, в построении отношений между людьми, а также в мире бизнеса, изучение уровня языковых учебных заведений, созданных для развития иностранных языков в Азербайджане, а также другие проблемы, по теме «Роль иностранных языков в интеграции азербайджанских спортсменов в зарубежные страны в период независимости».

**Ключевые слова:** Международный Олимпийский Комитет, Национальный Олимпийский Комитет, спортсмены Азербайджана, зарубежные страны, международное сотрудничество, интеграция в мир, иностранные языки, «Программа реформ», флаг Азербайджана, спорт, физическое воспитание, «Меч и перо», «Мяч и клюшка», спортивная политика, учебные заведения, магнитофонные ленты, патриотическое воспитание, выставки и ярмарки.

## The role of foreign languages Azerbaijani athletes integration to the foreign countries in the period of independence

*Master of Sports, Etibar Guliyev*
*Azerbaijan State Academy of Physical Training and Sport*

**Annotation:** The role of foreign languages Azerbaijani athletes integration to the foreign countries during the period of independence, relevant legislative acts related to these issues, government programs, other official documents, scientific analysis of decrees and resolutions, the role of the English language

in the world at present in diplomacy, in commerce, in navigation, in science, in technology, in mass media, the study and analysis of the current position of foreign languages in international relations of athletes during the period of independence, the creation of conditions for Azerbaijanis scattered across different countries of the world, with the aim of receiving education in the Azerbaijan Republic, the strategic benefits of their specialization, the foreign language knowledge of all developed countries, the most important and actual issues of the time, the role of foreign language knowledge in studying of international and intercultural relations, in building relationships between people, as well as in the business world, studying the level of language educational institutions created for the development of foreign languages in Azerbaijan, as well as other problems found their solution in this article.

**Key words:** International Olympic Committee, National Olympic Committee, athletes of Azerbaijan, international countries, international cooperation, integration into the world, foreign languages, “Reform Program”, Azerbaijan flag, sports, physical training, “Sword and Pen”, “Ball and Club”, sports policy, educational institutions, recording tapes, patriotic education, exhibitions and fairs.

# İDMANÇI HƏYƏCANI, QORXU VƏ FOBİYALARININ ARADAN QALDIRILMASININ PSİXOLOJİ ÜSULLARI

Psixologiya üzrə fəlsəfə doktoru M.S.Əliyev
m_a_1977@mail.ru
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Nəşr tarixi**
Qəbul edilib: 1 noyabr 2019
Dərc olunub: 5 dekabr 2019
© 2019 ADBTİA. Bütünhüquqlarqorunur.

**Annotasiya:** İdmançılarınqorxu, fobiya və həyəcan yaşamaları və bu proseslərin onların idman nəticələrinə təsiri problemin aktual əhəmiyyət kəsb etdiyinə işarə edir. Beynəlxalq dərəcəli idmançıların yüksək nailiyyətlər əldə etməsi onların öz həyəcan, qorxu və fobiyalarına necə münasibət bəsləmələrinə bağlıdır. Bu məqsədlə, referativ məqalədə hər üç anlayış müqayisəli təhlil predmetinə çevrilir, onlarla mübarizənin psixoloji üsulları qeyd edilir. Azərbaycanda elmi şəkildə müqayisəli təhlil edilən qorxu, fobiya və həyəcan anlayışları ilk dəfə idmançılara xitabən psixoanaliz və neyrolinqvistik proqramlaşdırma aspektindən tədqiqat predmetinə çevrilir. Nəticədə idmançıların öz həyəcan, qorxu və fobiyaları ilə mübarizə aparmasının bəzi praktik psixoloji üsulları təsvir olunur.

**Açar sözlər:** qorxu, fobiya, həyəcan, real qorxu, nevrotik qorxu, qorxuya hazırlıq, qorxunun inkişafı, çəkinmək, xof, real həyəcan, nevrotik həyəcan, əxlaqi həyəcan, “sürətli fobiya müalicəsi” texnikası, desensibilizasiya metodu, relaksasiya metodu

Bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da idmançıların əksəriyyəti *qorxu* və *həyəcan* yaşamaqdadır. Lakin problemin mahiyyətini anlamadan, kökünü incələmədən onu sadəcə bir müddətlik aradan qaldırmaq mümkün ola bilər. Mövzunun aktuallığını qoruyan məhz bu anlayışlara fərqli prizmadan baxışların mövcudluğudur, çünki müxtəlif yanaşmalar müxtəlif həll yollarının tapılmasına vəsilə olur.

Biz problemi psixoanaliz və neyrolinqvistik proqramlaşdırma aspektindən təhlil etməyə çalışacağıq; psixoanaliz nöqteyi-nəzərindən, problemin mahiyyətini anlaya bilmək və neyrolinqvistik proqramlaşdırma nöqteyi-nəzərindən isə problemin aradan qaldırılması yollarını göstərmək üçün.

Z.Freyd qorxudan danışarkən *real* və *nevrotik qorxunu* fərqləndirir [5]. Günümüzdə artan nevrotik qorxudur. Real qorxunu izah edərkən, Z.Freyd yazır ki,